

**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

# ANARIN "GÖZ MUNCUĞU"

## (gecikmiş yazı olsa da)

**Xalq yazıçısı Anarın ”Göz muncuğu” romanı (”Azərbaycan” jurnalı, № 11) 2014-cü ilin ədəbi hadisəsi hesab oluna bilər. Az bir müddət ərzində roman ədəbi ictimaiyyət və oxucular arasında böyük əks-səda doğurdu. Bütün yaradıcılığı boyu hər yeni nəsr əsəriylə oxucuları düşünməyə sövq edən, onları narahat edən suallara cavab axtaran və təkcə məzmununa, təlqin etdiyi fikir və ideya anlamına görə deyil, həm də bədii-sənətkarlıq priyomlarına görə seçilən Anar nəsri bu dəfə də ədəbi aləmi tərpətdi, silkələdi. Görünür, nəsrdə uzun müddət həyatı, insanı bu səpgidə təsvir edə biləcək əsərlərə ehtiyac duyulurmuş.**

Anar nəsri keçən əsrin altmışıncı illərindən başlayaraq insan haqqında bədii-fəlsəfi düşüncələri ilə oxucunu maraqlandırmağa başlayıb. İnsanı adi məişət qayğılarından tutmuş cəmiyyətdə mövqeyinə qədər hərtərəfli, geniş planda təhlil hədəfinə çevirən Anar nəsri təkcə bir zamanın, konkret bir dövrün məcrasına sığan deyil. Anarın Kəbirlinskisi, Zaur və Təhminəsi, Fuadı, Oqtayı ötən əsrin tipləri olsa da, onların dramları və faciələri bütün zamanlar üçün səciyyəvidir. Anar əbədi Xeyir-Şər, Hörmüz-Əhrimən mübarizəsini konkret bir dövrə sığışdırmır. Anar həmin konflikti bütün zamanlar üzrə dövr elətdirir, təbii ki, hər zamanın öz fəlsəfi, psixoloji dönümlərini nəzərə alır. Əsər iki dünyanın-həm bu, həm də o dünyanın arasında qalan, ölüb sonra dirilən bir insanın taleyindən, əzab və ağrılarından söz açır. Hadisələr yuxu-reallıq, xəyal-fantaziya, işıq-qaranlıq çevrələrində davam edir. Anarın nəsri sosrealizmin ”müsbət qəhrəman” konsepsiyasına ilk nümunələrindən biganəlik göstərmiş, insanı müsbət-mənfi qarışığında təqdim etməyə meylli olmuşdur. Ona görə də onun ”Göz muncuğu” romanında da insan öz əməlləri ilə müsbətlə mənfinin arasındadır, pislik də, xeyirxahlıq da bir insanın öz içindədir və onlar daim mübarizə aparırlar, pisliklər insanı Şərə, xeyir əməllər isə yaxşılığa doğru sürükləyir. Romanda mistika ilə reallıq, keçmişlə bu gün arasında körpü, bağlılıq, rabitə yaradılır və əslində, bu, yazıçının bədii priyomlarını şərtləndirdiyi kimi, zaman-məkan əlaqələrinin də mövcudluğunu təyin edir. Mif, folklor və xalq inancları, əfsanə və rəvayətlər, yuxu və gerçəklik elementləri xaotik bir mənzərə yaradır, amma bu xaosda vahid ideya planı-insanı bütün mürəkkəbliyilə canlandırmaq istəyi reallaşır. Beləliklə, Anar altmışıncı illərdən bəri qələmə aldığı nəsr əsərlərinə xas olan bütün elementləri daha kamil şəkildə bu son romanda cəmləşdirir, insan haqqında təsəvvürləri fəlsəfi-psixoloji aspektdə oxucuya təqdim edir.

Əsər barədə mətbuatda bir sıra yazılar dərc edilib və o yazılarda belə bir cəhət vurğulanır ki, Anar insanı anlamaq, onun mənəvi-ruhi sarsıntılarını, Şərə qarşı mübarizəsini əks etdirmək üçün orijinal, tamamilə fərqli bir bədi manera, yol seçmiş, həm əsərdə qaldırdığı problemi, həm də bu problemin bədii təcəssümünü ustalıqla, sənətkarlıqla əks etdirmişdir. Təbii ki, bu fikirlər illər boyu səsləndirilir və Anar nəsri haqqında bu sabit təsəvvürün dəyişməməsinin bir səbəbi var: Anarın nəsri insanşünaslığın, həyatşünaslığın bədii etalonu olmaq səviyyəsində bir hadisədir. ”Asqılıqda işləyən qadının söhbəti”, ”Keçən ilin son gecəsi”, ”Mən, sən, o və telefon”, ”Gürcü familiyası”, ”Dantenin yubileyi”, ”Molla Nəsrəddin-66” silsiləsi, ”Yaxşı padşahın nağılı”, ”Əlaqə”, ”Macal”, ”Qırmızı limuzin”, ”Otel otağı”, ”Ağ qoç, qara qoç”... bu əsərlər müasir nəsrimizin son altmış ildə dünya, insan və həyat haqqında, keçmişimiz və indimiz - bu günümüz barədə bədii ədəbiyyatın ən kamil şəkildə dediyi SÖZdür. Və bu əsərlərin bir çoxu artıq klassik nəsrin də cərgəsinə qatılmaq hüququnu əldə edib.

Anar nəsri mahiyyəti etibarilə polifonik nəsrdir və bu nəsrdə ”çoxsəslilik” təkcə forma-sənətkarlıq xüsusiyyətlərinə aid deyil (obrazların təqdimində, süjetin inkişafında qəfil, gözlənilməz olayların meydana çıxması, lirik, dramatik və fəci məqamların təhkiyədə qəribə bir vəhdət yaratması, daxili ”səs”in və monoloqların təhkiyəvi elementə çevrilməsi, psixoloji effekt doğuran məqamların bütün əsər boyu bir-birini əvəz etməsi və s.), bu cəhət əsərlərin tipoloji fərqliliyini də ehtiva edir. Anarın nəsrini bədii planda şərh eləmək, təhlil hədəfinə çevirmək ...bu, məsələnin yalnız bir tərəfini əhatə edir. Ancaq onun nəsri, xüsusilə, ”Göz muncuğu” romanı öz fəlsəfi və tarixi aspektdə interpretasiyasını tələb edir. Bu baxımdan ”Göz muncuğu” əsəri bədiilik hüdudlarını aşır, həm də fəlsəfi bir roman səviyyəsinə çatır. Nəsrimizdə bu tipli nümunələrə nadir hallarda rast gəlmişik.

”Fəlsəfi roman” anlayışını təkcə Xeyir-Şər, Həyat-Ölüm, Zülmət-İşıq qarşıdurmalarının fəlsəfi şərhi, yaxud əsərdə cərəyan edən hadisələrin fəlsəfi məzmunu, təqdim olunan obrazların dünyagörüşü ilə məhdudlaşdırmaq olmaz, əsrlər boyu ədəbiyyatımızda bu qarşıdurmalar öz bədii həllini tapıb, lakin yazıçı əgər bütün bu problemləri əsərin əsas leytmotivinə, ana xəttinə çevirirsə, bu başqa məsələ... ”Göz muncuğu” bu mənada son dərəcə maraqlı, orijinal bir əsərdir.

Əsər ”Azərbaycan” jurnalında povest kimi təqdim olunur və fikrimcə, bu təqdimat bir qədər mübahisəlidir. ”Göz muncuğu” povest çərçivəsini aşır. Burada Anarın ”Roman və zaman” məqaləsindəki (”525-ci qəzet”, 28 fevral 2014) bir fikri əsərin janrı ilə bağlı mübahisə yaranarsa, əsas götürmək olar. Anar yazır: ”Geniş mənada və anlamda götürsək, roman tarixin müxtəlif dönəmlərində dünyanın epik mənzərəsini və fəlsəfəsinin məğzini dövrün tələbinə uyğun daha əhatəli, qlobal və universal şəkildə əks etdirən nadir ədəbi janrdı. Bu məqamda onun nəsrlə, yoxsa nəzmlə yazılması, konkret süjetə, fabulaya malik olub-olmaması, yaxud fəlsəfi-nəsihətvari mətnlərlə ifadə edilib-edilməməsi o qədər də önəmli deyil”.

”Göz muncuğu”nda da ”dünyanın epik mənzərəsi və fəlsəfəsinin məğzi” universal şəkildə əks olunub və əlbəttə, ”Göz muncuğu” həcmcə nə ”Sakit Don”, nə Şamo”, nə də ”Klim Samkinin həyatı” ilə müqayisə edilə bilər, amma roman kimi janrın əksər tələbləri ilə səsləşir.

”Göz muncuğu” heç şübhəsiz, nəsrimizdə yeni bir hadisədir və hər yeni hadisə özü ilə yeni suallar da doğurur və izahını tələb edir. Əsərin geniş və əhatəli təhlilindən sərf-nəzər edirik, yalnız romanla bağlı bir neçə məqamı nəzərə çarpdıraq.

1. Roman on səkkiz irili-xırdalı fəsildən ibarətdir və hər fəsil romanda qoyulan başlıca problemlə üzvi şəkildə əlaqələndirilir. Bir neçə fəsildə romanın qəhrəmanının-Əhlimanın ”dirilməsi”, məzarda ikən keçirdiyi əndişələr, düşdüyü vəziyyətin ağrı-acısından doğan düşüncələr təqdim edilir. Ölmək, sonra dirilmək, belə bir ”möcüzə” - bu motiv dünya ədəbiyyatından bizə tanışdır. Anar bu motivi bir ”möcüzə” kimi deyil, bədii şərtilik tələbincə təqdim edir. Ölümdən sonra canlı həyat yoxdur, hələlik o dünyadan bu dünyaya təşrif gətirən də olmayıb, lakin bədi-fəlsəfi bir əsərdə reallığın təcəssümü naminə hər hansı şərtilik qəbuledilləndir. Əhlimanı düşündürən də elə budur: ”Ömrü boyu materialist olmuşdu. Ölümdən sonra başqa bir həyatın mövcudluğuna heç vaxt inanmamışdı. Bəlkə yanılırmış. Bəlkə, ömür saat kəfkiri kimi həyat və ölüm arasında o yan-bu yana gedib-gəlir. O



yana - məlum. Bəs bu yana? Bu yanadamı qayıdırmış həyat kəfkiri? Bəs onda? O dünya dedikləri buymuş-dardan dar, rütubətli, kif qoxuyan, nəm, soyuq, hənirsiz-səssiz”.

Daha sonra müəllif belə bir izah verir: ”Müəllif üçün vacib olan diri-diri yer altına gömülmüş insanın oyandığı zaman keçirdiyi halların təhlili və möcüzəli şəkildə sağ qalıb, ”xortdayıb”, qəbirdən çıxan ”ölünün” onun kim tərəfindən qətlə yetirildiyini bilmək üçün axtarışlar aparmasıdır”.

Əlbəttə, romanın qayəsini təkcə bu izahla məhdudlaşdırmırıq. Çünki Anar bu ”ölüb-dirilmə” motivindən Əhlimanın həyat tarixçəsinə bir yol açır. Bu yol uşaqlıq illərinin acılı xatirələrindən başlayır. Varlı qonşunun ərköyün oğlu Nəsib Əhlimanı təhqir eləməkdən xüsusi bir zövq alır. Amma Nəsib az sonra qəzaya uğrayır: ”maşının dal qapısını açdılar, üzgözü qan hörrəsindən tanınmaz olmuş Nəsibin cəsədini çıxardılar”.

2. Anarın nəsrində hər bir obrazın özünün məxsusi cizgiləri olur və bu həmin obrazın möhürü kimi yalnız ona aid olur. Əhlimanın göz duyğusu belə bir xassəni özündə əks etdirir və bu da süni və qondarma deyil, el arasında gözünün dağıdıcı cazibə qüvvəsi ilə tanınan adamlar var və bunu mifik bir hal hesab etmək doğru olmazdı. Amma bu, Əhlimanın bəd tərəfidir, ona bəxş olunan mənfi ”statusdur”. Və bütün əsər boyu Əhlimanın öz içindəki Şərə qarşı mübarizəsinə əngəl olan da elə bu bəd nəzərdir. Amma təkcə bu bəd nəzərmi? İnsanın müsbət areala doğru can atmasıyla içindəki mənfiliklərin mövcud olması təbii ki, onu ikiləşdirir. Və bu ikilikdə Şərin pəncəsindən qurtulmaq çox çətinmiş...

Əhlimanı səciyyələndirən daha nə var?

Anar müasir dövrün elə bir insan tipini təqdim edir ki, o, altmışıncı illərin ziyalı tiplərindən tamamilə fərqlənir, nə Oqtaya, nə Fuada, nə Zaura, nə Təhminəyə, nə də bədbəxt Kəbirlinsikiyə bənzəyir. Bu obraz XXI əsrin, indiki qloballaşma dövrünün övladıdır. Onun intellektual aləmi Əshabi-Kəf, Dədə Qorqud, Hörmüz-Əhrimən qədimliyinə gedib çıxır, hind fəlsəfəsinin KARMA anlayışına, Çin fəlsəfəsinə maraq göstərir. Monoteist dinlərin mahiyyətini anlamaq istəyir. Eksizsentializm düşüncəsini dərk etməyə çalışır və deyək ki, bütün bunlara az-çox dərəcədə nail olur. Lakin sivilizasiyanın ən maksimal dönəmində belə, insan insandır və onun xoşbəxtliyini, yaxud bədbəxtliyini sivilizasiyanın, qloballaşma aləminin mövcudluğu müəyyənləşdirmir. İnsan OLUMLA ÖLÜM arasında, özü ilə ALLAH arasında çırpınan, birincisində xilas olmağa, ikincisində isə qovuşmağa can atan bir varlıq deyilmi? Məncə, Anarın təqdim elədiyi bu yeni qəhrəman tipinin də fərqli xüsusiyyəti budur.

3. Anarın qəhrəmanları onun özü kimi realistdirlər və bu real qəhrəmanlar xarakterlərinin bütün yönləriylə müasir dünyanı təmsil edirlər. Düşüncələrində təzadlar, həyata baxışlarında ziddiyyətli məqamlar nəzərə çarpsa da bizim müasirlərimizdir onlar. XX-XXI əsrlərin övladları olan bu tiplər real dünyamızın ən çətin sınaqlarından keçir, bəlalar, müsibətlər sədləri ilə üzləşirlər, amma bu qovğalar, bu Ağ qoç -Qara qoç aşırımları Xeyirlə Şər arasında çabalayan insanların həyat imtahanına çevrilir. Anarın real, görümlü təsvirlərində ustadı Mirzə Cəlildən gələn ironiya, kəskin sarkazm elementləri, başqa bir yöndə isə fantast, sürrealist məqamlar nəzərə çarpsa da, lirika və romantika da bu nəsrin ”ərazisində” özünəməxsus yer tutur. Məncə, romanda ”Aydan” və ”Ay rəqsi” fəsilləri romandakı real, yarıreal, irreal və mistik səhnələrin üzərinə çəkilən bir naxışdır. Ömrü boyu məftun olduğu qadınlara seksual tələbatının ödənci kimi baxan Əhlimanın həyatına Aydan gəlir və Anarın gənc tədqiqatçısı Pərvinin söylədiyi kimi-gəlir ki, ”Əhlimanın içindəki şərlə mübarizəsi üçün, xeyrin qalibiyyəti üçün. Xilas kimi... Amma təbiətin ona verdiyi, sonralar insanların, mühitin alışdırdığı, alovlandırdığı, dərinləşdirdiyi əbədi bir bəla ilə yaşaması çətin idi”. Bu romantikanın sonu təəssüf ki, vəhşətlə bitir və belə də olmalıydı. İnsan içindəki şərdən xilas ola bilmirsə, İNTİHAR ya şüurlu şəkildə Ölümə təslim olmaq zərurətə çevrilir.

”Göz muncuğu” çox mürəkkəb bir əsər, onun qəhrəmanı da mürəkkəb və ziddiyyətli bir xarakter...

Belə bir ifadə var: ”roman dili”. Anar ”Göz muncuğu”nda məhz roman dili ilə danışır. Xarakter bütövlüyü, zəngin ifadə, bədii təsvir mədəniyyəti, Dünya-Cəmiyyət-Zaman- İnsan dördbucağının bütün parametrlərini bir romanda modelləşdirmək səyi ”Göz muncuğu”nda da bariz nəzərə çarpır və bu əsəri müasir Azərbaycan nəsrinin uğuru hesab edirik...